**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№343/1** **14 aprel 2022-ci il**

# Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat barədə

Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 10.4-cü “Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması” bəndinə müvafiq olaraq hazırlanmış “Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat”ı və bu hesabata dair Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hazırlanmış hesabat” Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla bəyənilsin (əlavə olunur).

2. Auditorlar Palatasının struktur bölmələri tərəfindən hesabat ili ərzində 2021-ci il üzrə iş planında nəzərdə tutulan 70-ə yaxın, o cümlədən “Auditorun şəxsi kabineti sisteminin fəaliyyətinin təşkili və təkmilləşdirilməsi”, “Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada nəzərdə tutulan tədbirlərin tətbiqi”, “Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) təqdim edilmiş fəaliyyət planının icrası ilə əlaqədar məlumatların hazırlanması və göndərilməsi”, 2021-ci il 16 sentyabr tarixində “Şəffaflıq və audit: yeni dövrün çağırışları, problemlər, vəzifələr” mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi, Auditorlar Palatasının 25 illik yubileyi münasibətilə “Yubiley təbrikləri”, “Faktlar”, “Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivi və üzvləri (1996-2021)” kitablarının, “Maliyyə Hesabatları – Mahiyyəti/Forması/Hazırlanması/Təhlil olunması praktik vəsait”in hazırlanması və nəşr etdirilməsi, Azərbaycan Respublikasının Baş Prokurorluğu yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi və Azərbaycan Respublikası Auditorlar Palatasının birgə təşkilatçılığı ilə “Özəl sektorda antikorrupsiya standartları” mövzusunda onlayn qaydada seminar-müşavirənin keçirilməsi, Auditorlar Palatasının 2020-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması, auditor fəaliyyəti ilə əlaqədar, o cümlədən Palata üzrə təsdiq edilmiş plan-proqramlara uyğun olaraq bir sıra təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması, distant qaydada vebinarların, kursların və sair tədbirlərin həyata keçirilməsi müsbət hal kimi dəyərləndirilsin.

3. Auditorlar Palatasının rəhbərliyinə (S.Gülməmmədov, Q.Bayramov, F.Qarayev, N.Talıbov, Y.Namazəliyev, N.Quliyeva), struktur bölmələrinin rəhbərlərinə (V.Rəhimov, E.İbrahimov, V.Cavadov, Q.Əhmədov, E.Behbudova, Z.Almazov) və Palatanın Şurası yanında komitələrin və komissiyanın rəhbərlərinə tapşırılsın ki, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"nda (2021-2030-cu illər), Auditorlar Palatasının 2022-ci il üzrə iş planında, Palata Şurasının qərarlarında, Palata sədrinin əmr və sərəncamlarında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.

4. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

4.1. Auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, müstəqil auditə ictimai etimadın və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasibəlrin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), Auditorlar Palatasının normativ sənədlərinin tələblərinə düzgün riayət olunmasını təmin etsinlər;

4.2. 2022-ci ilin "Auditor fəaliyyəti sahəsində haqsız rəqabətə qarşı mübarizə" ili elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə əməl etməklə, auditor xidmətlərinin keyfiyyətini və daxili nəzarətin səmərəliliyini yüksəltməklə haqsız rəqabətin və dempinq hallarının aradan qaldırılmasını təmin etsinlər.

5. 2021-ci il üzrə hesabatın hazırlanmasına məsul olan icraçılara (Q.Bayramov, N.Talıbov, F.Qarayev, N.Quliyeva) tapşırılsın ki, cari ilin aprel ayının sonunadək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına və digər aidiyyəti qurumlara göndərilməsi təmin edilsin.

6. Palata sədrinin müşaviri F.Qarayevə, Maliyyə və texniki təminat idarəsinə (V.Rəhimov) tapşırılsın ki, cari ilin 01 iyun tarixinədək "Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın azərbaycan, ingilis və rus dillərində Palatanın internet səhifəsində yerləşdirilməsi və ingilis dilinə tərcümə olunmuş variantının Auditorlar Palatasının həqiqi üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) göndərilməsi təmin edilsin.

7. Auditorlar Palatasının Aparatının rəhbəri Q.Bayramova tapşırılsın ki, "Azərbaycan Respublikası Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın icmalının ictimaiyyətə açıqlanması məqsədilə KİV-də məqalə və şərhlərin dərc etdirilməsi təmin edilsin.

8. Bu qərarın və "Auditorlar Palatasının 2021-ci il üzrə fəaliyyətinin yekunlarına dair hazırlanmış hesabat"ın mətnləri Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**